COP29 Baku Azerbaijan

2024 | YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ

Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti

Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi Botanika İnstitutu

Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyi

Biomüxtəlifliyin dayanıqlığının təmin edilməsində yeni çağırışlar (COP29)

YAŞIL DÜNYA VƏ İNSAN SAĞLAMLIĞI

Beynəlxalq Elmi-Praktiki Konfrans

3-4 iyun 2024
Naxçıvan şəhəri

MÜNDƏRİCAT

Naxçıvan Muxtar Respublikasının bioloji müxtəlifliyinin müasir vəziyyəti və istifadə imkanları

Talıbov T.H., İbrahimov Ə.M., Seyidova H.S. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA FABACEAE LINDL. FƏSİLƏSİNİN NADİR VƏ MƏHVOLMA TƏHLÜKƏSİNDƏ OLAN NÖVLƏRİ

İbadullayeva S.C., Zülfüqarova P.V., Mürsəl N. AZƏRBAYCAN FLORASINDA APIACEAE LINDL. FƏSİLƏSİNİN ENDEMİKLİYİ

Quliyev Ə.G. COP 29 - AZƏRBAYCANDA QLOBAL İQLİM DƏYİŞMƏSİNİN İLKİN TƏSİRİ NAXÇIVANDA ÖZÜNÜ GÖSTƏRMƏKDƏDİR

Talıbov T.H., Məmmədova Ü.M. NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ PİŞİKOTULAR YARIMFƏSİLƏSİNİN MÜHAFİZƏ STATUSLU NÖVLƏRİ

Əsədov E.S. BİOMÜXTƏLİFLİYİN FORMALAŞMASINDA BAL ARILARININ ROLU

Ələsgərova Ə.N. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BİTKİ ÖRTÜYÜNDƏ YOVŞAN CİNSİ NÖVLƏRİNİN ROLU VƏ BİOEKOLOJİ XÜSUSİYƏTLƏRİ

Mehdiyeva N.P. NAXÇIVAN FLORASININ DƏRMAN POTENSİALI

Nəbiyeva F.X. ARAZBOYU DÜZƏNLİKLƏRİN FLORASI VƏ BİTKİLİYİNİN MÜASİR VƏZİYYƏTİ

Mustafayeva İ.R., Seyidov M.M., Qasımov H.Z. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILMIŞ ZİRİNC (*BERBERIS* L.) CİNSİNƏ DAXİL OLAN NÖVLƏR VƏ YABANI BİTKİ MƏHSULLARI

Alverdiyeva S.M., Sohrabi M. NAXÇIVAN ƏRAZİSİNDƏ RAST GƏLİNƏN MARAQLI ŞİBYƏ NÖVÜ

Mövsümova N.V., Öztürk M. NAXÇIVAN MR DUZDAĞ ƏRAZİSİ FLORASININ NADİR VƏ İTMƏK ÜZRƏ OLAN NÖV MÜXTƏLİFLİYİNİN MONİTORİNQİ

Muxtarova Ş.C., Qəhramanov S.H., Muradova A.B., Mamanazarova K.S. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONTİNENTAL SUTUTARLARINDA SAPROFİT YOSUNLARIN YAYILMASI

Məmmədova A.V., Batan N. NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ BƏZİ NADİR YARPAQGÖVDƏLİ MAMIR NÖVLƏRİ VƏ ONLARIN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Rəhimova S.Ə., Hidayətzadə F. NAXÇIVAN MR ƏRAZİSİNDƏ BİTƏN BƏZİ ALÇA SORTLARININ ANTİOKSİDANT AKTİVLİYİNİN TƏDQİQİ

Yaşıl yaşayış üçün şəhər biomüxtəlifliyinin qorunması və istifadəsi

Novruzov V.S., Bayramova A.A. COP 29-a GEDƏN YOLLARIN ASTANASINDA

Allahverdiyev N.İ. ŞƏHƏR MÜHİTİ YAŞILLIQLARININ İNSAN RİFAHINA TƏSİRİ

Ganiyeva R.A., Dadashova S.B., Aliyeva S.A., Atakishiyeva S.A EFFECT OF PHOTOINHIBITION AND PROTEIN SYNTHESIS INHIBITORS ON PS II ACTIVITY UNDER OXIDATIVE STRESS

Bayramov B.S., Hüseynov A.M., Əliyeva T.R. ƏTRAF MÜHİT, TƏHLÜKƏSİZLİK VƏ DAYANIQLI İNKİŞAFDA COP-29-un ROLU

Bağırova Ş.Ə. ABŞERON YARIMADASINDA TORPAQ ÖRTÜYÜNÜN MÜNBİTLİK GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

Faydalı bitkilərin öyrənilməsi, xalq təbabəti və etnobotanikanın səmərəli istifadəsi

İbadullayeva S.C., Əmrahova F.F. QARABAĞIN ARAN ƏRAZİLƏRİNDƏ FAYDALI BİTKİ RESURSLARININ MONİTORİNQİ

Novruzov E.N. AZƏRBAYCAN BİTKİ SƏRVƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNİN VƏZİYYƏTİ, PRESPEKTİVLİYİ VƏ PROBLEMLƏRİ

Qasımov H.Z., Seyidov M.M., Mustafayeva İ.R. DƏRMAN QULANÇARI (*ASPARAGUS OFFICINALIS* L.) BİTKİSİNİN BİOEKOLOJİ VƏ FAYDALI XÜSUSİYYƏTLƏRİ

Seyidov M.A. ÇOBANYASTIĞI, BOYMADƏRƏN VƏ DAZI OTU BİTKİLƏRİ QARIŞIMININ BAYTARLIQ TƏBABƏTİNDƏ ƏHƏMİYYƏTİ

Məmmədova Z.Ə, Bədəlova V.N., Alışlı N.Ş. LƏNKƏRAN-ASTARA BÖLGƏSİNƏ AİD BƏZİ SİTRUS BİTKİLƏRİNİN EKOLOJİ XÜSUSİYYƏTLƏRİ, EFİR YAĞLILIĞI VƏ FİTOKİMYƏVİ TƏDQİQİ

Qədimov Ə.H., Babayeva G.X., Səfərov A.R., Eyvazova G.Z. MÜXTƏLİF EKOLOJİ ŞƏRAİTLƏRDƏ YETİŞƏN *AMARANTHUS* L. BİTKİSİNİN MORFOLOJİ GÖSTƏRİCİLƏRİ VƏ AZOT METABOLİZMİ

Ələkbərov R., Rzazadə G. PƏNCƏRKİMİLƏR FƏSİLƏSİNƏ DAXİL OLAN İSPANAQ (*SPINACIA* L.) BİTKİSİNİN FAYDALARI

Ələkbərov R.Ə., Abdullayeva D.İ. ŞÜYÜD - *ANETHUM GRAVEOLENS* L. BİTKİSİNİN FAYDALARI HAQQINDA

Şirəliyeva G.Ş., Məmmədova H.X., Mehrabani Ə. NAXÇIVAN MR FLORASINDA YAYILAN QIRMIZIBAŞ CİNSİ NÖVLƏRİNİN ETNOBİOLOJİ TƏHLİLİ VƏ FAYDALI XÜSUSİYYƏTLƏRİ

ÇOBANYASTIĞI, BOYMADƏRƏN VƏ DAZI OTU BİTKİLƏRİ QARIŞIMININ BAYTARLIQ TƏBABƏTİNDƏ ƏHƏMİYYƏTİ

Seyidov M.A.
Naxçıvan Dövlət Universiteti
E-mail: mirvasifseyidov@ndu.edu.az

Müasir dövrdə əhalinin kənd təsərrüfatı məhsullarına, o cümlədən heyvandarlıq məhsullarına artan tələbatı baytarlıq işçiləri qarşısında böyük vəzifələr qoyur. Çünki yüksək məhsul əldə edilməsi üçün sağlam sürü yaradılması və heyvan sağlamlığının qorunması çox vacib məsələlərdən biridir.

Haliyədə körpə kənd təsərrüfatı heyvanları arasında tez- tez qanlı ishalla müşahidə olunan dispepsiya, kolibakterioz, salmonellyoz, quzuların anerob dizinteriyası kimi xəstəliklər onların tələfatına, yaşlı heyvanlarda qanlı ishalla müşahidə olunan xəstəliklər isə məhsuldarlığın aşağı düşməsinə səbəb olan amillərdən hesab edilir.

Belə xəstəliklərin kimyəvi dərman maddələri ilə müalicəsi təsərrüfat üçün iqtisadi zərərə səbəb olmaqla yanaşı, bir çox hallarda belə müalicə vasitələri ilə tələfatın qarşısını almaq mümkün olmur. Bu baxımdan son dövrlərdə xalq təbabətinə, xüsusən bitkilərdən hazırlanan dəmləmə, tinktura və s. kimi vasitələrdən istifadə edilərək müalicə aparılmasına üstünlük verilir.

Apardığımız ədəbiyyat araşdırmalarından məlum olur ki, çobanyastığı (*Matricarai chamomilla)* bitkisinin tərkibində 0,2-0,8% efir yağı var. Efir yağının tərkibində matrisin, xamazulen, azulen, seskviterpenlər, apiin, kumarinlər, terpen spirtləri, xolin, askorbin turşusu, karotin, selikli maddələr vardır. Matrisin və xamazulen iltihabəleyhinə, apiin isə parçalandıqda spazmolitik təsir edir.

Boymadərən (*Achillea millefolium*) bitkisinin tərkibində 0,2% efir yağı, alkaloid betonisin və K vitamini vardır. Tərkibində azulen olduğundan bakteriosid xassəyə malikdir.

Dazı otunun (*Herba perforatum*) tərkibində qırmızı flüoresensiyaedici maddə- hiperisin və psevdohiperisin, flavonoidlərdən hiperozid və ya hiperin, rutin, kversetin və kversitrin vardır. Bundan əlavə efir yağları, 10%-ə qədər pirokatexin qruplu aşı maddələr, qatranlar, xolin, C vitamini və digər maddələrin olduğu müəyyən edilmişdir. Dazı otu həm də karotinlə zəngindir.

Xalq təbabətində qədim zamanlardan məlum olmaqla, bu bitkinin iltihabəleyhi, qankəsici, qurdqovucu və büzüşdürücü təsirləri vardır.

Hər üç bitkinin yuxarıda qeyd olunan xüsusiyyətlərini bilərək onların qarışımından istifadə edib körpə kənd təsərrüfatı heyvanlarının qanlı ishalla müşahidə olunan toksiki dispepsiya, kolibakterioz, salmonellyoz kimi xəstəliklərinin müalicəsində istifadə etməyi qarşıya məqsəd qoyduq. Alınan nəticələrimiz göstərir ki, hər üç bitkinin bərabər nisbətdə qarışımından hazırlanan dəmləmə, bir günlük aclıq dietasından sonra buzovlara yaşı və çəkisindən asılı olaraq gündə iki dəfə olmaqla 350-500 ml, quzulara isə yaş və çəkisindən asılı olaraq 80-150 ml içirilməsi 90-95% sağalma ilə nəticələnir.